# Nizamişünaslığa dəyərli töhfə, yaxud Nizami Gəncəvinin şöhrət kölgəsi altında görünən möhtəşəm uğurları

**Tarix və poeziya. Tarixin poeziyası və poeziyanın tarixi, bunların hər ikisi bənzərsiz azərbaycanlı şair Nizami Gəncəvi əsərlərində var. Üstəlik də, Nizami əsərlərini oxuyanlar bir Nizamidə bir neçə Nizami görürlər: şair Nizami, filosof Nizami, təbib Nizami, təbiətşünas Nizami, elmşünas Nizami, astroloq Nizami, alim Nizami və sair. Görkəmli şərqşünas professor Rüstəm Əliyev yazır: "O zaman müsəlman şərqində belə adlar ən ali ziyalı zümrəsindən olan və mənəviyyat aləminə xidmət edən şəxslərə verilirdi. Şairin anası da, görünür, kübar ailədən olmuşdur. Şairin dayısı Ömər "xacə" adı daşıyırdı: o zaman bu ad adətən mənsəb sahiblərinə verilirdi. Əlimizdə Nizaminin valideynlərinin sosial vəziyyəti haqqında daha dəqiq məlumat yoxsa da, aydındır ki, o, mədəni və varlı ailədə yetişib tərbiyə almışdır. Bunu şairin hərtərəfli, kamil biliyə malik olması da göstərir.**




Poemalarından göründüyü kimi, Nizami Quranı oxumuşdu, o, əsərlərində dəfələrlə şəriətdən misal gətirmiş, Məhəmməd peyğəmbər haqqında rəvayət və əfsanələrdən istifadə etmiş, ilahiyyat məsələlərinə, həmçinin "ədəb" anlayışına daxil olan elmlər kompleksinə dərindən yiyələnmişdir. Nizami fəlsəfəni yaxşı bilirdi, həm də bu zaman o, təkcə islam dininin fəlsəfi ehkamları ilə kifayətlənmir, antik filosofların əsərlərindən, antik rəvayətlərdən və mifologiyadan geniş surətdə istifadə etmişdir.

Təbiyyat elmləri arasında, görünür, astronomiyaya daha mükəmməl yiyələnmiş şair "Leyli və Məcnun" poemasında peşəkar bir alim kimi səma cisimlərini heyrətamiz dərəcədə gözəl və dəqiq təsvir edir. Nizami professional şəkildə onlarla səyyarənin adını çəkib səciyyələndirir, onların bir-birilə əlaqəli düzülüş qaydasını göstərir.

Nizami öz dövrünün coğrafiya elmi və kosmoqrafika ədəbiyyatı ilə yaxından tanış olmuşdur, bunu makedoniyalı İsgəndərin yürüşlərinin təsvirindən ("İsgəndərnamə") görmək olar.

Onun əsərlərində riyaziyyat və kimya barədə məlumatlar da müəyyən yer tutur, özü də səciyyəvi burasıdır ki, şair, görünür, kimyagərlərə inanmamışdır.

Nizami təbabət, anatomiya, əczaçılıq sahəsində də dərin və hərtərəfli biliyə malik olmuşdur. Xəstəliklərin təsvirini, sağlamlığı qorumağın şərtlərini şair həmin dövrdə təbabət elminin qabaqcıl nailiyyətləri səviyyəsində təqdim edir" (1).

Nizami Gəncəvinin həyat və yaradıcılığından illərlə geniş bəhs olunmuş, monoqrafiyalar, çoxsaylı kitab və məqalələr yazılmış, əsərlərinə əsrlərlə maraq artmış, qələmə aldığı məşhur poemaları ingilis, alman, fransız, italyan, ispan, rus, yapon, azərbaycan və başqa dillərə tərcümə edilmişdir.

Azərbaycanın ən nəhəng şairi Nizami Gəncəvinin elmi dünyagörüşü haqqında yenicə çapdan çıxmış bir kitab nəzərimi dərhal özünə cəlb etdi. Kitabın adına diqqət yetirin: "Şairlik şöhrətində qalmış mütəfəkkir: Nizami Gəncəvinin elmi dünyagörüşü haqqında". Şöhrətin kölgəsi. Yaxşı deyilmiş poetik ifadə. Nəhəng şairin şöhrət kölgəsi. Şöhrət işığının şöhrət qədər də geniş sahəsini əhatə edən kölgə! Şöhrət kölgəsi!!! Maraqlı təşbehdir (2).

Hər hansı dəyərli bir şəxsin elmi dünyagörüşü haqqında yalnız elmi dünyagörüşü olan alim mövzunun adını rəhbər tutaraq elmi söz deyə bilər. Bu kitabın müəllifi siyasi elmlər üzrə fəlsəfə doktoru Eldar Əmirovdur. Elmi dünyagörüş! Çoxsahəli və çoxşaxəli elmi dünyagörüş! Nizami Gəncəvi dünyagörüşü!

"Ön söz"ü, altı fəsli və "Son söz"ü əhatə edən bu kitabı bir neçə gündə bir neçə dəfə oxudum və çox şey öyrəndim. Müəllif orta əsrlər farsdilli şərq ədəbiyyatının klassiki olmuş Nizami Gəncəvinin yaratdığı "Xəmsə" ("Beşlik") əsərini qələmə aldığı ilk illərdən başlayaraq şairə inanılmaz dərəcədə şöhrət gətirdiyini və onun adını dünya poeziyasında əbədiləşdirdiyini xüsusilə qeyd edir (3).

Əlbəttə bu doğrudan da belədir. Axı onun böyüklüyünün nəzərə çatdırılmasında E. Əmirovdan əvvəl d`Erblo, V.Cons, C.Etkinson, Y.Hammer-Purqştal, A.Şprenger, V.Baxer, Ç.Riyo, İ.Pidzi, H.Ete, Y.Braun, P.Horn, Y.Ripka, N.Xanıkov, N.Onvak, həmçinin istisnasız bütün şərq təzkirəçiləri, habelə Azərbaycan tədqiqatçıları M.Rəsulzadə, M.Cəfər, Z.Bünyadov, C.Mustafayev, M.Dadaşzadə, A.Hacıyev, H.Araslı, M.Rəfili, Ə.Əlizadə, M.Quluzadə, Ə.Mübariz, R.Əliyev, Q.Əliyev, R.Azadə, Ə.Abbasov və başqa alimlərin xidmətləri olmuşdur (4).

E.Əmirov Nizaminin Homer, Vergiliy, Firdovsi, Dante, Servantes, Şekspir, Molyer, Puşkin kimi ümumdünya ədəbiyyat klassikləri ilə bir sırada durduğunu qeyd edir (5).

Müəllif Nizaminin lirik və son dərəcə poetik poeziyasindan başqa fəlsəfənin, dövlət quruluşu və idarəçiliyin, astronomiyanın, tibbin, fizikanın, tarixin aktual problemlərini nəzmə çəkdiyini və bu elm sahələrinin şairin bütün əsərlərində yer tutduğunu bildirir, akademik A.Makovelskiyə (1884-1969) əsaslanaraq Nizami əsərlərində təbiətşünaslıq, iqtisadiyyat, siyasət, etika, estetikaya dair də fikirlərin xüsusi yer tutduğunu vurğulayır (6).

E.Əmirov professor V.Bartold (1890-1957), M.Tərbiyət (1875-1940), Ə.Dövlətabadi, Q.Muradxanov, A.Mətləbi, Ə.Əhmədov, Q.Abdullayev və V.Vəliyev, C.Həsənov, N.Əliyev, Q.Məmmədbəyli, İ.Əfəndiyev, C.Mustafayev, Ş.Məmmədov, A.Rzayevə istinadən Nizami Gəncəvi elmi baxışlarının xüsusi əhəmiyyətə malik olduğunu dönə-dönə bildirir.

Kitabın birinci fəslində Nizami Gəncəvinin həyat və yaradıcılığındakı mühüm səhifələr səbrlə varaqlanır, onun müxtəlifliklərə yiyələnən mənəvi təkmilləşmə prosesini izləyən E.Əmirov Nizaminin doğumundan ölümünə qədərki həyat yolundan bəhs edir, haqqında yazılan bəzi fikirlərə tənqidi yanaşır, yazıb-yaratdığı mühitin ictimai-siyasi, ədəbi-mədəni xüsusiyyətlərinə də diqqət yetirir (7).

İkinci fəsil əvvəldən sona qədər Nizamiyə xas nəsihətamiz (didaktik) fikirləri, elmə yiyələnmək üstünlüyünü təlqin etmək kimi məsləhəti, biliyə nail olmağın ən böyük zənginlik olduğunu, elə özünün də gənclik vaxtı bütün elmlərə baş vuraraq gizli sirləri öyrənməkdən ötrü çoxlu kitab oxuduğunu və yuxusuz gecələr keçirdiyini, özündən əvvəl yaşamış ərəb və fars poeziyasının məşhur klassikləri Əbu Nuvas (VIII əsr), Əl-Mütənəbbi (915-965), Rudəki (858-941), Firdovsi (935-1020), Ünsüri (980-1039) və başqa söz ustadlarından poetik zənginlik öyrəndiyini və romantik, tarixi və fəlsəfi mövzularda şeirlər yazdığını bildirir (8).

Bu həqiqətən də belədir. Nizami tez-tez özünün şairlikdə başqalarından üstün olduğunu bildirir və əlbəttə belə deməklə əsla təkəbbürə yol vermir. "Məxzənül-əsrar" əsərində oxuyuruq:

*"Bir neçə məddah ki dövrəmdə var,*
*Bəlli, bizim dərgaha üz tutdular.*
*Baş Nizamiyə əyirlərsə gər,*
*Başqa odur, başqaları kimdilər."(9)*

(Orijinaldan tərcümə mənimdir - Ş.F. bax: "Kolliyyate-Xəmseye-həkim Nizamiye-Gəncəvi ("Həkim Nizami Gəncəvi Xəmsəsinin külliyyatı", Tehran, hicri 1370, səh.30)

Bu nəhəng ustad həqiqətən də özünün söz demək və şeir yazmaq məharətinə inanır və oğlu Məhəmmədə müraciətlə belə deyir:

*"Var isə hər beytin oğul nisbəti,*
*Təb atasındandır onun qüdrəti...*
*Mən ki bu fənn ilə çəkilmiş yayım,*
*Göz görə bu şivədə yoxdur tayım...*
*Sənətim əfsundan alıb aramı,*
*Sehrimə məftundu mələklər hamı." (10)*

Bu fəsildə "Yeddi gözəl" ("Həft peykər"), "Xosrov və Şirin", "İsgəndərnamə" poemalarına, habelə Qurana əsaslanan E.Əmirov Nizaminin təlqin etdiyi Yaradana inam, göy cisimlərinin xüsusiyyətləri və hərəkət etmələri, heyvanat aləmi və bitkilərin müxtəlifliyi, bəşərin əxz etdiyi müxtəlif dillər haqqında fikirlər yürüdür, şairin üzünü Allaha tutaraq dua etdiyini və Göyün və Yerin əbəs yerə yaranmadığını bildirir: "Ey bizim hökmüdarımız! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən inkarolunmazsan! Bizi atəşdə yanmaq əzabından qoru." (11)

E.Əmirov "Xəmsə"nin "parlaq obrazlarından və ideal hökmdarlarından" olmuş İskəndərin Nizami tərəfindən məth olunmasının səbəbini göstərər, dərin biliyə malik olmayan, elmin, mədəniyyətin əhəmiyyət və qədrini bilməyənlərin əvvəl-axır ölkənin inkişafından ötrü mahiyyət etibari ilə heç nə etmədiklərini nəzərə çatdırır (12).

Monoqrafiyanın III fəsli, (habelə V və VI fəsilləri) ictimai-siyasi məsələlərin, təbiət elmlərinin, tibb və psixologiyaya Nizami baxışlarının təhlilinə həsr olunmuşdur. Şairin poemalarına, həmçinin tədqiqatçılardan A.Rızayevə, A.Quliyevə, E.Bertelsə, Q.Məmmədova, M.Xeyrullayevə, M.Rəsulzadəyə, A.İqnatenkoya, A.Saqadeevə, D.Mustafayevə, İ.Mojeykaya, L.Babkinə, Q.Moskaya, A.Mokovelskiyə, Ə.Sultanlıya dəfələrlə istinad edən E.Əmirov, Nizaminin dünya görüşü və baxışlarında siyasət, dövlət idarəçiliyi, ictimai münasibət barədə geniş mülahizələr yürüdür, böyük şairin ona xas təhlil xüsusiyyətlərindən ətraflı bəhs edir, rüşvətxorluğun dövlətin təməlini zəiflətdiyini, ən qorxunc cinayət növü kimi qanunçuluğun və ictimai ədalətin bərqərar olmasına maneəçilik törətdiyini, hökmüdar tərəfindən çıxarılan qərarlarda ədalətin zəruriliyini, habelə yaltaq adamların işdən uzaqlaşdırılaraq onların əvəzinə işgüzar şəxslərin işə cəlb edilməsini və s. məsələləri hərtərəfli araşdırır, ideal cəmiyyətin yaranması haqqında Nizaminin siyasi fikir və düşüncələrinə istinad edir, orta əsrlər şərq ədəbiyyatında ilk şair olaraq qadına münasibət, onun hüquq və azadlığına ehtiramla yanaşma mövqeyini əks etdirən mülahizələrini ətraflı təhlil etməklə qədim Azərbaycan şəhəri Bərdənin qadın hökmüdarı kimi Nüşabə obrazını yaradan şairin, qadın ağıl və dərrakəsinin yararsızlığını tənqidə məruz qoymasını xüsusi qeyd edir (13).

Əsərin dördüncü fəslində "Xəmsə"nin tarixi mənbə kimi əhəmiyyəti öz əksini tapmışdır. Tədqiqatçı bu xüsusda qeyd edir ki, hələ keçən əsrin ortalarında məşhur alim B.Leviatov (1905-1963) "Xəmsə"nin tarixi əhəmiyyətini bildirərək onun faktoloji baxımdan Azərbaycan xalqının tarixi, etnoqrafiyası və mədəniyyətinin təhlilində faydalı bir əsər olduğunu vurğulamışdır. V.Leviatova görə Azərbaycanın maddi mədəniyyətinin öyrənilməsində Nizami ilə tanışlıq mütləqdir..., çünki, zəmanəsinin əksər mədəni ölkələrində uzaq şərqdən tutmuş qərbə qədər onun məlumatı vardır (14).

E.Əmirov təəssüf hissi ilə qeyd edir ki, bu istiqamətdə 80 il ərzində Nizami və onun əsərləri haqqında ayrı-ayrı cəhd və təşəbbüslərin olmasına baxmayaraq, Vətən tarixində hələ də bu sahədəki işlər tamamilə bitməmişdir. Fikrinin təsdiqi üçün müəllif tərəfindən R.Azadənin "Nizami və onun sələfləri", A.Makovelskinin "Nizami əsərlərinə əsasən XII əsr Azərbaycan cəmiyyəti", Q.Kəndlinin "Nizaminin "Xosrov və Şirin" əsərinin tarixilik zəminəsi və Azərbaycan Atabəyliyinin bir neçə xəzinə sənədi" məqaləsi misal gətirilmişdir ki, əlbəttə, indi və gələcəkdə bu mövzuda tədqiqat əsərləri çox-çox yazılmalıdır, ona görə ki, tarixşünaslıq materialı baxımından göstərilən əsərlərin elmi yeniliyinə və əhəmiyyətinə baxmayaraq, onları tam elmi tədqiqat işi kimi xarakterizə etmək olmaz.

"Şairlik şöhrətinin kölgəsində qalmış mütəfəkkir..." monoqrafiyasının bu fəslində həmçinin vurğulanır ki, Nizami öz yaradıcılığında tarixi məsələlərdən bəhs etməklə Azərbaycanın orta əsrlər bütün müsəlman Şərqində şairlərin hamısından yuxarıda dayanmış, belə ki, şair "Yeddi gözəl" poemasının yazılmasında özündən əvvəlki ərəb, həmçinin məşhur fars müəlliflərinin əsərlərindən ilkin mənbələr kimi istifadə etmişdir (15).

E.Əmirov akademik R.Ə.Mehdiyev tərəfindən "milli mədəniyyətin, ədəbiyyatı, və Azərbaycan xalqının özünüdərkində Nizaminin tarixi rolu haqqında" qiymətli fikirlər deyildiyini qeyd etmiş, "Nizaminin şəxsində təkcə keçmişin dahi şəxsiyyətinin deyil, indiki və gələcək Azərbaycanın nəhəng ideya resursunun birini gördüyünü" bildirmişdir (16).

V fəsil "Nizami "Xəssə"sində təbiətşünaslıq məsələlərinin in ikası" adlanır. Nizami kainatın quruluşu, təbiət qanunlarının və göy cisimlərinin hərəkətinin qanunauyğunluğu, maddi aləmin elmi qavranılması, yaşadığı dövrdə astronomiya, fizika, riyaziyyat və fəlsəfənin mühüm problemlərinin öyrənilməsi kimi elmi bəhslərlə məşğul olurdu. Bu ilk növbədə təbiətşünaslıq haqqında qarşıya qoyduğu və Xəmsə poemalarında toxunduğu geniş məsələləri əhatə edir. Məhz buna görə də Nizaminin böyük təfəkkür və düşüncələrinə əsaslanan elmi baxışları çox vaxt ötməsinə baxmayaraq bu gün də öz aktuallığını saxlamaqda və tədqiqatçıların diqqətini cəlb etməkdədir - belə yazır E.Əmirov (17). Axı Nizami təfəkkürü belə məsələlərin öyrənilməsi və dərk olunmasından kənarda qala bilməzdi. Bu mütəfəkkirin Yer Şarının dairəvi olması barəsindəki fikirləri məgər onun mütərəqqi elmi baxışlarından irəli gəlmirmi? Nizami yaşadığı dövrdə astoromik cihazların texniki səviyyəsinin zəif olmasına baxmayaraq Şərq və Avropa astronomlarından bir neçə yüz il əvvəl olaraq elmi baxımdan həqiqətə uyğun fikirlər söyləmiş, təkcə Yerin öz oxu ətrafında fırlanmasından deyil, habelə bütün kainatın fırlanmasından bəhs etmişdir. Şair haqqında belə sualların sayını xeyli artırmaq olar, lakin bizim qələmə aldığımız bu kiçik məqalədə onları tam əhatələmək mümkün olmadığı üçün oxuculara E.Əmirovun yazdığı monoqrafiyanı diqqətlə mütaliə etmələrini məsləhət görürük. (18)

VI fəsil bütünlüklə Nizami və orta əsrlərdə tibb elmi və psixologiyanın bir sıra problemlərinə həsr olunmuşdur. Biz monoqrafiyanın V fəslinin axırıncı cümləsində oxucuya məsləhət gördüyümüz fikrimizi bu fəslə də aid edirik. Nizaminin tibb sahəsində böyük bilik mənimsəməsi, həmçinin psixologiya problemlərinə dərindən malik olması haqqında E.Əmirovun əsərlərinə istinad etdiyi müəlliflərin hamısı (İ.K.Əfəndiyev, A.O.Makovelski, Y.Kannabix, A.Yakubik, C.Təqdisi, Nizami Əruzi Səmərqəndi, E.Braun, C.Mustafayev, S.Rüstəmova) maraqlı və əhatəli fikirlər söyləmişlər. (19)

Nəticə etibarilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci ilin "Nizami ili" elan olunması haqqındakı fərmanı "Şairlik şöhrətinin kölgəsində qalmış mütəfəkkir: Nizami Gəncəvinin elmi dünyagörüşü haqqında" adlı monoqrafik əsərin "Son söz" hissəsində müəllif Eldar Qurban oğlu Əmirov tərəfindən, əlbəttə, böyük rəğbətlə qarşılanmış, o, son dərəcə qiymətli bir elmi əsəri çap etdirərək yazmışdır: "Bu fərman Nizami kimi böyük şəxsiyyətin və onun irsinin növbəti və daha dərindən dərk olunmasından ötürü yaxşı bir tövsiyədir." (20)

***Ədəbiyyat***


*1. Nizami. Hikmət və nəsihətlər. Aforizmlər. XİI əsr Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 840 illiyinə, Bakı, "Yazıçı" nəşriyyatı, 1982, səh. 9-10.*
*2. Эльдар Амиров. Мыслитель, затменный славой поэта: о научном мировоззрении Низами Гянджеви. Баку: "Элм", 2021*
*3. Yenə orada, səh. 4-5.*
*4. Azərbaycan Sovet Ensiklopediyası, cild VİI, Bakı - 1983, səh. 249.*
*5. Eldar Əmirov. Göstərilən əsər, səh. 5.*
*6. Yenə orada, səh. 5-6.*
*7. Yenə orada, səh. 14-55.*
*8. Yenə orada, səh. 58.*
*9. Orijinaldan tərcümə mənimdir - Ş.F. (Bax: "Kolliyyate-Xəmseye-həkim Nezamiye-Gəncəvi" ("Həkim Nizami Gəncəvi Xəmsəsinin külliyyatı", Tehran, 1370 (hicri), səh.30)).*
*10. Nizami Gəncəvi. Məxzənül əsrar, Bakı - "Müəllim - 2011, səh. 52, 54-55. Orijinaldan tərcümə Mircəlal Zəkinindir.*
*11. Eldar Əmirov. Göst. əsər, səh.63.*
*12. Yenə orada, səh. 59-60.*
*13. Yenə orada, səh. 70-77.*
*14. Yenə orada, səh. 117.*
*15. Yenə orada, səh. 117-118,119,120,180-181.*
*16. Мехтиев Р.Э. Низами Гянджеви: наследие мыслителя в контексте мировой культуры и национального самосознания. Баку, 2021, с.47.*
*17. Eldar Əmirov. Göstərilən əsər, səh.182.*
*18. Yenə orada, səh. 200-203, 204, 205.*
*19. Yenə orada, səh. 217.*
*20. Yenə orada.*


**Şahin FƏRZƏLİYEV**
**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor**